*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 06 (547)

16 mart 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI CƏNAB İLHAM ƏLİYEVƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARI GÜNÜNÜN 27-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM İŞTİRAKÇILARININ MÜRACİƏTİ

**Möhtərəm Prezident!**
**Cənab Ali Baş Komandan!**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları gününün 27-ci ildönümünə həsr olunmuş təntənəli mərasimin iştirakçıları Sizi dərin hörmət və ehtiramla salamlayır, ən xoş, səmimi arzularını bildirir!

Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonrakı illərdə dövlətçiliyimiz çətin sınaqlarla üzləşdi. O vaxtkı iqtidarın səriştəsizliyi nəticəsində ölkədaxili ictimai-siyasi sabitliyin təmin edilməməsi böyük fəlakətlərə gətirib çıxardı.

Milli Liderimiz Heydər Əliyevin 1993-cü ildə Ali hakimiyyətə qayıdışından sonra ölkədə tüğyan edən xaosa, hərc-mərcliyə son qoyuldu, vətəndaş müharibəsinin qarşısı alındı, dövlətimizin daxili və xarici siyasəti milli maraqlarımızın etibarlı qorunmasına istiqamətləndirildi. Beləliklə, Azərbaycanın qurtuluşu və inkişafı gerçəkliyə çevrildi.

Milli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında ölkə həyatının bütün sahələrində, o cümlədən ordu quruculuğunda aparılan islahatlar Daxili Qoşunların da müasir beynəlxalq standartlar səviyyəsində formalaşması üçün möhkəm təməl yaratdı. Onun imzaladığı tarixi fərman və sərəncamlar döyüş hazırlığının və hərbi intizamın yüksəlməsi, maddi-texniki bazanın möhkəmlənməsi, hərbçilərin sosial təminatının yaxşılaşması ilə nəticələndi, qoşunların idarə edilməsində keyfiyyətcə yeni mərhələnin əsası qoyuldu.



Siz Ulu Öndərin bu siyasətini uğurla davam etdirərək Daxili Qoşunların inkişafı üçün qəbul etdiyiniz qərarlar, göstərdiyiniz diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılanır.

Daxili Qoşunların şəxsi heyəti ilə tarixi görüşləriniz, eləcə də xidməti-döyüş fəaliyyətimizə verdiyiniz yüksək qiymət, haqqımızda söylədiyiniz dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla hərbi qulluqçularımızı daha böyük uğurlara ruhlandırır. Respublikamızda ictimai təhlükəsizliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsində xüsusilə fərqləndiklərinə görə bir qrup hərbi qulluqçunu yüksək mükafatlara layiq görməniz bizim üçün böyük mənəvi stimul olmaqla bərabər, Vətən, xalq, dövlət və dövlətçiliyimiz naminə xidmət əzmimizi daha da artırır. Sözsüz ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, vətəndaşlarımızın təhlükəsizliyinin, əmin-amanlığının, yüksək peşəkarlıqla təminini tələb edir.



Sizin rəhbərliyiniz altında xalqa, müstəqil ölkəmizə, dövlətçiliyimizə xidmət etməkdən şərəf duyan, ciddi nizam-intizama, sağlam mənəvi-psixoloji mühitə malik, döyüş hazırlığını, peşəkarlığını gündən-günə yüksəldən Daxili Qoşunların şəxsi heyəti qanunla müəyyən edilmiş bütün vəzifələri, qarşıya qoyulmuş döyüş tapşırıqlarını yerinə yetirməyə tam hazırdır.

**Möhtərəm Prezident!**
**Cənab Ali Baş Komandan!**

Əmin edirik ki, Hərbi anda, xalqına və dövlətinə, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə sadiq olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti dövlətçiliyimizin və müstəqilliyimizin, hər bir vətəndaşın hüquq və azadlıqlarının keşiyində bundan sonra da ayıq-sayıq dayanacaq, Sizin bütün əmr və göstərişlərinizi ən yüksək səviyyədə yerinə yetirəcək, Azərbaycan Respublikasına sədaqətlə xidmət edəcəkdir!

***Müraciət 12 mart 2019-cu il tarixdə Daxili Qoşunların Baş İdarəsində keçirilən təntənəli mərasimdə qəbul olunmuşdur.***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçularına general-mayor ali hərbi rütbəsi verilsin:

polkovnik Muradov İnqilab Heydər oğlu

polkovnik Niftaliyev Səlim Cəfər oğlu.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2019-cu il.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 27-ci ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə aşağıdakı hərbi qulluqçular təltif edilsinlər:

**"İgidliyə görə" medalı ilə**

Xudiyev Vilayət Yunus oğlu – leytenant (ölümündən sonra)

Qasımov Elşən Oruc oğlu – əsgər (ölümündən sonra)

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abdullayev Namiq Yədulla oğlu – polkovnik

Bayramov Kamal Damad oğlu – polkovnik-leytenant

Əliyev Yaşad Ayıl oğlu – polkovnik-leytenant

Əsgərov Zöhrab Əvəzağa oğlu – polkovnik-leytenant

Fərəcov Fariz Mirzağa oğlu – polkovnik-leytenant

İbrahimov Əfqan Musa oğlu – polkovnik-leytenant

Məmmədov Emin Arif oğlu – polkovnik-leytenant

Musayev Alışan Həbosət oğlu – tibb xidməti polkovnik-leytenantı

Umudəliyev Vaqif Rəşaiq oğlu – polkovnik-leytenant

Yusubov Natiq Yusif oğlu – polkovnik-leytenant

Rəhimov Zaur Şirinbəy oğlu – mayor

Rizvanov Anar Tofiq oğlu – mayor

Seyidov Orxan Mir Qafar oğlu – kapitan

Rüstəmov Elçin Kərəm oğlu – baş gizir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2019-cu il.

## Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984–2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 fevral 2019-cu il.

2_Layout 1 15.03.2019 15:25 Page 1



# DAXİLİ QOŞUNLAR İSTƏNİLƏN DÖYÜŞ TAPŞIRIĞINI UĞURLA YERİNƏ YETİRMƏYƏ QADİRDİR

*Martın 12-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 27-ci ildönümü qeyd olunub*

**Bu münasibətlə Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri Xiyabanda Milli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi anılıb, məzarı üzərinə tər çiçək dəstələri düzülüb.**

**Sonra Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının unudulmaz xatirəsinə ucaldılmış "Əbədi məşəl" önünə əklil qoyulub. Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının abidəsi ziyarət olunub.**









Daha sonra Daxili Qoşunların Baş İdarəsində əlamətdar hadisə-növbəti ildönümə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov iştirak edib.

Əvvəlcə salona Daxili Qoşunların Döyüş Bayrağı gətirilib. Ulu Öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda, xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və bu günü barədə geniş məruzə ilə çıxış edib. Bildirilib ki, Milli Lider Heydər Əliyevin 1995-ci il 9 mart tarixli fərmanı ilə Qoşunların torpaqlarımızın müdafiəsi məqsədilə döyüşə başladığı ilk gün – 1992-ci ilin 12 mart tarixi "Azərbaycan Respublikasının Daxili Qoşunları Günü" elan olunmuşdur.

Daxili Qoşunların tarixinin parlaq hadisələrlə zəngin və Vətənimizin yeni tarixi ilə sıx bağlı olduğunu diqqətə çatdıran nazir müavini xalqa və dövlətə sədaqətlə xidmət edən Qoşunların hərbi qulluqçularının polis orqanlarının əməkdaşları ilə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiklərini vurğulayıb. O, respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə Daxili Qoşunların 672 hərbi qulluqçusunun şəhid olduğunu, 1173 nəfərin yaralandığını, 9-nun itkin düşdüyünü və hərbi qulluqçulardan 9 nəfərinin "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldüyünü qeyd edib.

Məruzəçi bildirib ki, 1994-cü ildən başlayaraq Daxili Qoşunlarda idarəetmənin təkmilləşdirilməsi, döyüş və peşə hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi, normativ-hüquqi və maddi-texniki bazanın yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib.

Planlı şəkildə aparılan müvafiq işin nəticəsi olaraq, komandirlərin və idarəetmə orqanlarının fəaliyyətinin effektivliyi, hərbi hissələrin döyüş qabiliyyəti, əsgər və zabitlərin vətənpərvərlik ruhu daha da yüksəlib, mənəvi-psixoloji durumu əhəmiyyətli dərəcədə möhkəmlənib.

Sonra çıxış edən Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Daxili Qoşunların yaranmasının 27-ci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Zati-alilərinin səmimi təbriklərini, ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb. O, Milli Lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyi sisteminin əsas struktur qurumlarından olan Daxili Qoşunların təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladıb.

Cənab Ramil Usubov möhtərəm dövlət başçımızın ali diqqət və qayğısı sayəsində Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını keyfiyyətlə yerinə yetirməyə qadir olan peşəkar birləşməyə, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini, maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün məqsədyönlü tədbirlər həyata keçirildiyini, hərbi hissələrin ən yüksək beynəlxalq standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edildiyini bildirib.

Qeyd olunub ki, ölkədə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasında şəxsi heyətin özünəməxsus rolu vardır.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, cənab Prezidentin 7 mart 2019-cu il tarixli müvafiq sərəncamları ilə daha 16 hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının, iki nəfərə isə ali zabit rütbəsinin verilməsinin, bayram ərəfəsində hərbi qulluqçuların maaşlarının artırılmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir onu da qeyd edib ki, ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də Qoşunların xidmətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

O da nəzərə çatdırılıb ki, Daxili Qoşunlar 1997-ci ildən Türkiyənin Jandarma Qüvvələri Baş Komandanlığı ilə sıx əməkdaşlıq edir. Nazir R.Usubov əldə edilmiş uğurlarda danılmaz roluna, təmənnasız yardımlarına görə dost və qardaş dövlətin Jandarma Qüvvələri Baş Komandanlığının rəhbərliyinə, hərbi mütəxəssislərinə təşəkkürünü bildirib.

General-polkovnik Ramil Usubov ölkə Prezidentini əmin edib ki, Daxili Qoşunların bütün şəxsi heyəti bundan sonra da respublikamızda asayişin, daxili təhlükəsizliyin, vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarığını əsirgəməyəcək.

Daxili Qoşunların yaranmasının 27-ci ildönümü ilə əlaqədar bir qrup hərbi qulluqçunun təltif edilməsi haqqında ölkə başçısının sərəncamları, Daxili İşlər Nazirinin və nazir müavini-Daxili Qoşunların Komandanının imzaladığı əmrlər elan olunduqdan sonra xidmətdə fərqlənənlərə dövlət təltifləri təqdim edilib.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul olunub.

**Daxili İşlər Nazirliyinin Mətbuat xidməti**













3_Layout 1 15.03.2019 15:36 Page 1



# ŞƏHİDLƏRİMİZİN QARDAŞLIQ MƏZARI ÜZƏRİNDƏ YENİ MEMORİAL ABİDƏ KOMPLEKSİ YARADILIB



Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yüzlərlə hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb. Şəhid hərbi qulluqçularımız respublikamızın paytaxtı və bölgələrindəki şəhidlər xiyabanları, habelə ailələrinin yaşadıqları ünvanların yaxınlığında yerləşən qəbiristanlıqlarda dəfn olunublar.

Bakıda "Əbədi məşəl"in alovlandığı, dövlət ziyarət protokoluna daxil olan, tarixi məkan kimi tanınan Şəhidlər Xiyabanında istiqlalımız və torpaqlarımızın toxunulmazlığı naminə həyatını qurban vermiş yüzlərlə şəhidimiz torpağa tapşırılıb. Burada yeganə qardaşlıq məzarı da mövcuddur ki, Daxili Qoşunların şəhid hərbi qulluqçularına aiddir. Belə ki, 1992-ci ilin iyul ayının 19-da Ağdərə rayonunun Aterk kəndinin (hazırda Kəlbəcər rayonunun Həsənriz kəndi, işğal altındadır) müdafiəsi uğrunda döyüşdə Daxili Qoşunların 5477 saylı hərbi hissəsinin (hazırda 17072 saylı hərbi hissə) onlarla hərbi qulluqçusu cəsurluq göstərərək son nəfəsinədək vuruşub və həlak olub. Onların bir qisminin düşmən tərəfindən yandırılmış və torpağa gömülmüş meyitlərinin qalıqları döyüş gedən ərazi işğaldan azad edilərək geri qaytarıldıqdan sonra tapılaraq ön cəbhədən paytaxta gətirilib. Şəhidlərimizin meyitlərinin dəhşətli vəziyyəti onların çoxunun kimliyini müəyyən etməyə imkan verməyib. Beləliklə, Aterk (Həsənriz) şəhidlərinin meyitlərinin qalıqlarının qardaşlıq məzarında dəfn olunması qərara alınıb.

1992-ci il iyul ayının 30-da Şəhidlər Xiyabanında Aterk (Həsənriz) şəhidlərinin dəfn mərasimi keçirilib. Dəfn mərasimində Daxili Qoşunların Komandanlığını təmsil edən vəzifəli şəxslər, şəxsi heyət, şəhidlərin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

O vaxt Aterk (Həsənriz) kəndində müvafiq abidə kompleksinin yaradılmasına dair sərəncam verilib. Müharibə gerçəkliyi və göstərilən ərazinin yenidən işğala məruz qalması səbəbindən bu sərəncam yerinə yetirilməyib.

Bir neçə il sonra qeyd olunan qardaşlıq məzarının üzərində 38 nəfər şəhidin adı həkk olunan abidə yaradılıb. Həmin adlar Aterk (Həsənriz) döyüşündə həlak olduğu və itkin düşdüyü ehtimal edilən hərbi qulluqçuların ümumi siyahısından götürülüb. Ancaq sonrakı dövrdə aparılan araşdırmalar nəticəsində müəyyən edilib ki, adları məzarüstü abidədə həkk edilən 38 nəfər hərbi qulluqçudan 2 nəfər sağdır. Həmin 2 nəfər hərbi qulluqçu Aterk (Həsənriz) döyüşü zamanı düşmən tərəfindən əsir götürülüb və sonradan geri qaytarılıb. Beləliklə, abidənin yeniləşdirilməsi zərurəti yaranıb. Bununla yanaşı, ötən illər ərzində abidənin və məzarüstü lövhənin köhnəlməsi, onun müasir tələblərə cavab verməməsi nəzərə alınaraq, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov tərəfindən yeni abidənin yaradılması təşəbbüsü irəli sürülüb. Daxili İşlər Naziri general-polkovnik cənab Ramil Usubov bu təşəbbüsü dəstəkləyərək, müvafiq işlərin görülməsinə göstəriş verib. Bununla da Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılaraq, Daxili Qoşunların şəhid hərbi qulluqçularının qardaşlıq məzarı ilə bağlı yeni layihə icra olunub. Qardaşlıq məzarı üzərində əvvəlkindən öz möhtəşəm quruluşuna və memarlıq elementlərinə görə fərqlənən müasir memorial abidə kompleksi yaradılıb.

İstedadlı və peşəkar memar Orxan Abdullayev bu layihənin müəllifidir. O, bu günədək Türkiyə və Azərbaycanda memarlıq, dizayn sahələri üzrə çalışıb.

Memorial abidə kompleksi ümumi sahəsi 26 kvadratmetr olan ərazidə layihələndirilib və mərmər platforma üzərində yerləşdirilib. Platforma 5 sm qalınlığındadır. Kompleks mərmər platforma üzərinə inşa olunan ikihissəli asimmetrik mərmər lövhədən və bürünc materialından hazırlanmış 8 guşəli ulduzdan ibarətdir. İkihissəli asimmetrik lövhə ağ və qara rəngli mərmərlərdən işlənib. Lövhələrin üstündə Daxili Qoşunların emblemi və bürünc hərflərlə Aterk (Həsənriz) döyüşü haqqında məlumat həkk edilib. Kompleksin ətrafında abadlıq işləri də görülüb.

**Bu mühüm layihənin həyata keçirilməsi şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə xidmət edir və Daxili Qoşunların şərəfli döyüş ənənələrinin təbliği, cəmiyyətdə hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi üçün də ictimai əhəmiyyətə malikdir.**

**Yalçın Abbasov**

# GÜNÜN NİZAM QAYDALARINA DÜZGÜN RİAYƏT OLUNMASI DAİM DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların Baş İdarəsində Qərargahın Əməliyyat və döyüş hazırlığı İdarəsində Növbətçi xidmətinin şəxsi heyətinin üzərinə düşən vəzifələr çoxşaxəlidir. Xidmətin düzgün təşkil olunmasında əlbəttə ki, xidmət rəisi-baş əməliyyat növbətçisi vəzifəsini müvəqqəti icra edən mayor Mübariz Məmişovun əməyi danılmazdır. O, növbətçi xidmətinin gündəlik fəaliyyəti barədə danışarkən qeyd etdi ki, ilk olaraq hər gün respublikada və hərbi hissələrdə, həmçinin, onların yerləşdiyi regionlarda yaranmış əməliyyat şəraiti barədə gündəlik olaraq məlumatlar toplanılır, aidiyyəti üzrə qeydiyyat aparılır, təhlil olunur və dəqiqləşdirmələrdən sonra Daxili Qoşunların Komandanlığına təqdim edilir. Bundan əlavə, sutkalıq xidmətə cəlb olunan şəxsi heyətlə yerbəyer mərasimi keçirilir, şəxsi heyətə mövcud əməliyyat şəraitinə uyğun tapşırıqlar verilir, funksional vəzifələr dəqiqləşdirilir. Dislokasiya yerindən kənarda sutkalıq xidmətə cəlb olunan hərbi qulluqçuların xidməti də əməliyyat qrupu tərəfindən yoxlanılır.

Nəzarət-buraxılış məntəqəsinin fəaliyyəti, xidmətin aparılması üzrə hərbi qulluqçuların üzərilərinə düşən vəzifələrin icrası növbətçi xidməti tərəfindən nəzarətə götürülür. Hər həftənin cümə günləri xidmətin şəxsi heyətilə həftəlik yekunlar təşkil olunub keçirilir. Yekunlarda xidmətin təşkili zamanı yol verilən nöqsanlar müzakirə edilməklə yanaşı, müsbət cəhətdən fərqlənən, verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşan hər bir hərbçinin xidməti təqdir olunur.

Funksional vəzifələrinin icrasına vicdanla yanaşan hərbi qulluqçulardan növbətçi xidmətində əməliyyat növbətçiləri mayor Ramil Əliyev, mayor Səbuhi Hüseynov, əməliyyat növbətçisinin köməkçisi gizir Nizami Nuriyev, nəzarət-buraxılış məntəqəsinin növbətçisi gizir Əli Əsgərov və baş çavuş Habil Mirzəyevin adlarını qeyd etmək olar. Onların hər biri xidmət rəisi tərəfindən müsbət xarakterizə olunur.



1993-cü ildən Daxili Qoşunlarda xidmət edən mayor M.Məmişov ötən 26 il ərzində Daxili Qoşunların ayrı-ayrı hərbi hissələrində müxtəlif vəzifələrə təyin olunub, ona olan etimadı layiqincə doğrultmağı bacarıb. 2008-ci ildən Daxili Qoşunların Baş İdarəsinin Qərargahında Növbətçi xidmətində xidmət edir. Xidməti-vəzifə borclarını layiqincə yerinə yetirdiyinə görə dəfələrlə Daxili İşlər Naziri, Daxili Qoşunların Komandanlığı tərəfindən mükafatlandırılıb. Həmçinin, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının müvafiq sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub.

"Məsuliyyət, dəqiqlik və çeviklik xidmətimizin əsas qayəsidir" - deyən əməliyyat növbətçisinin köməkçisi gizir N.Nuriyev nümunəvi xidməti, eləcə də yüksək nizam-intizamı ilə fərqlənən hərbi qulluqçularımızdandır. 1970-ci il yanvarın 31-də Bakı şəhərində anadan olub. Azərbaycan Dövlət İncəsənət Universitetinin Mədəni-maarif işinin təşkilatçı metodisti ixtisası üzrə ali təhsil alıb. 1994-1996-cı il tarixlərində Müdafiə Nazırliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. 2005-ci il noyabr ayından Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 25031 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət etməyə başlayıb. 2006-cı ildən Növbətçi xidmətində buraxılış bürosunun növbətçisi, 2009-cu ildən isə əməliyyat növbətçisinin köməkçisi vəzifəsində xidmətini davam etdirir.

**Xidmətin fəaliyyətindəki müsbət cəhətləri nəzərə alaraq deyə bilərik ki, bu gün Əməliyyat və döyüş hazırlığı İdarəsinin Növbətçi xidməti Daxili Qoşunların Komandanlığı tərəfindən qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirir.**

**baş leytenant**
**Xədicə Hacızadə**

# DAXİLİ QOŞUNLARIN TƏMİNAT HƏRBİ HİSSƏSİ QARŞIYA QOYULAN TAPŞIRIQLARI UĞURLA İCRA EDİR



Bu gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunları qarşısında ölkə ərazisində sabitliyin və ictimai təhlükəsizliyin qorunması kimi çox mühüm vəzifə durur. Şəxsi heyət qarşısında qoyulmuş dövlət əhəmiyyətli tapşırıqların uğurla icrasında, gündəlik xidməti-döyüş fəaliyyətində bir çox faktorla yanaşı, vacib məsələlərdən biri də hərbi qulluqçuların maddi-texniki təminatıdır. Belə ki, onların lazımi təminat növləri ilə təchizatında əsas yük 64412 saylı hərbi hissənin üzərinə düşür. Bu günlərdə 64412 saylı hərbi hissəyə xidməti ezamiyyətim zamanı mərkəzi anbarların fəaliyyəti ilə yaxından tanış oldum.

Məlumat üçün qeyd edək ki, Daxili Qoşunların 64412 saylı hərbi hissəsi 1992-ci ilin iyun ayının 12-də Daxili İşlər Nazirinin müvafiq əmrilə yaradılıb. O vaxtdan bu günə kimi hərbi hissə inkişaf edərək təqdirəlayiq xidmət yolu keçib.

64412 saylı hərbi hissənin komandiri polkovnik-leytenant Elşən Məhərrəmov da, öz növbəsində, Daxili Qoşunlar Komandanlığının əsas diqqət yetirdiyi sahələrdən birinin qoşunların maddi-texniki təminatı olduğunu nəzərimizə çatdırdı. Qeyd etdi ki, qoşunların maddi-texniki təchizat bazasının daha da möhkəmləndirilməsi daima ciddi nəzarətdə saxlanılır və bu istiqamətdə genişmiqyaslı işlər davam etdirilir.

Hərbi hissə öz təyinatı baxımından xüsusi və çox məsuliyyətli vəzifələri uğurla icra edir. Daxili Qoşunların Baş İdarəsi və hərbi hissələrini bütün təminat növləri ilə vaxtlı-vaxtında və normativ sənədlərə uyğun olaraq tam təchiz edir. Yəni Daxili Qoşunların hərbi hissələrinin mərkəzləşdirilmiş maddi-texniki təminatını 64412 saylı hərbi hissə həyata keçirir. Onu da xüsusi vurğulamaq lazımdır ki, qoşunlar üzrə əsas təchizat növləri üzrə ehtiyatlar hərbi hissədə cəmləşdirilir. Müxtəlif təşkilatlardan və müəssisələrdən hərbi hissəyə daxil olan bütün növ əmlaklar, eləcə də ərzaq məhsulları ictimai nəzarət komissiyasının iştirakı ilə yoxlanılıb anbarlara qəbul edilir. Sonra müvafiq göstərişlərə əsasən hərbi hissələrin təminatına buraxılır.

Anbarların etibarlı mühafizəsinin təmin olunması üçün burada müvafiq siqnalizasiya sistemi quraşdırılıb. Bütün anbarlar yanğından mühafizə vasitələri ilə təchiz edilib. Həmçinin, daxili rabitənin təşkili məqsədilə 32 abonentlik ATS quraşdırılaraq istifadəyə verilib.



Polkovnik-leytenant E.Məhərrəmov hərbi hissədə ayrı-ayrı xidmət sahələrinə aid anbarların və emalatxanaların mövcud olduğunu dedi. Əsas diqqət yetirilən məsələlərdən biri də anbarlarda səliqə-sahmana, yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi və hərbi qulluqçuların bu qaydalara əməl etmələri istiqamətində təlimatlandırılmasıdır: **"Deyə bilərəm ki, şəxsi heyət öz fəaliyyətini rəhbər sənədlərin tələbləri əsasında qurur, hər bir hərbi qulluqçu qarşısına qoyulan tapşırıqların məsuliyyətini tam dərk edir və funksional vəzifələrini uğurla həyata keçirir. Nümunəvi xidməti, nizam-intizamı ilə fərqlənən hərbi qulluqçulardan əşya anbarının rəisi baş gizir Əsgər Ələkbərovun və mənzil-istismar əmlakları anbarının rəisi gizir Yaşar Dünyamalıyevin adlarını çəkə bilərəm"**.



Baş gizir Ə.Ələkbərov və gizir Y.Dünyamalıyev hərbi hissələri əşya və mənzil-istismar əmlakları ilə təmin etməyə, əmlakların düzgün və keyfiyyətli qorunub saxlanılmasına, habelə tədarükçü təşkilatlardan əmlakların alınması zamanı onların kəmiyyətinin, eyni zamanda uyğunluğunun yoxlanılmasına cavabdehdirlər.

Anbarlarda saxlanılan əşya əmlaklarının nomenklaturasını bilmək, onların komplektliyinə, mövcudluğuna, o cümlədən keyfiyyətinə nəzarət etmək də anbar rəislərinin funksional vəzifələrinə daxildir. Günün sonunda onlar anbarlarda olan əmlakların hesabatını dəqiq aparmalı, mədaxil-məxaric sənədlərini məsul icraçıya təqdim etməlidirlər. Bundan başqa, ayda bir dəfədən az olmayaraq, məsul icraçı ilə tutuşdurma aparılır.

Bu sahədə xidmət edən məsul icraçılar da qarşılarına qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlirlər. Əşya anbarında məsul icraçı gizir Çiçək Sadıqova və mənzil-istismar əmlakları anbarında məsul icraçı gizir Könül Səmədova qeydiyyat kitablarını, qeydiyyat blanklarını, sənədlərin qorunub saxlanılmasını, habelə anbarlardan əmlakların buraxılması üzrə sənədləri düzgün tərtib edir, uçot kitablarını vaxtlı-vaxtında hazırlayırlar. Sadalananlarla yanaşı, anbar rəisləri ilə razılaşdırılmış şəkildə mədaxil-məxaric sənədlərini yazır, qeydiyyat kitablarında olan maddi vəsaitlərin qalıqlarını anbarın qeydiyyat məlumatları ilə müntəzəm olaraq tutuşdururlar. Onlar deyirlər ki, hər bir hərbi qulluqçu vəzifələrinə məsuliyyətlə yanaşsa, fəaliyyətini rəhbər sənədlərin tələbləri əsasında qursa və öz sahəsi üzrə dərin biliklərə yiyələnsə, həmişə uğur əldə edər. Bunun üçün hərbi qulluqçu daima öz üzərində çalışmalı, peşə vərdişlərinin artırılması istiqamətində səy göstərməlidir.

**"Əsgər" qəzeti olaraq biz də, öz növbəmizdə, haqqında danışdığımız hərbi qulluqçuların hər birinə apardıqları şərəfli xidmətlərində uğurlar diləyir, gələcəkdə peşəkarlıq səviyyələrini artıraraq, yüksək nəticələr əldə etmələrini arzulayırıq.**

**baş leytenant Nigar Ağayeva**

4_Layout 1 15.03.2019 15:42 Page 1



# HƏRBİ QULLUQÇULARIMIZIN AZYAŞLI UŞAQLARI ÜÇÜN NOVRUZ BAYRAMI ŞƏNLİYİ KEÇİRİLİB



Novruz Azərbaycan xalqının mədəniyyətini, milli-mənəvi dəyərlərini, folklorunu, milli varlığını özündə əks etdirən və dünyaya tanıtdıran qədim el bayramıdır. Novruz bir çox Şərq xalqlarının bayramı olsa da, Azərbaycanda daha təntənəli və özünəməxus qeyd edilir. 2009-cu il sentyabr ayının 30-da Novruz bayramı UNESCO-nun Qeyri-Maddi Mənəvi İrsi siyahısına daxil edilib, 2010-cu il fevralın ayının 23-də isə BMT-nin 64-cü Baş Assambleyasının iclasında hər il martın 21-i günü “Beynəlxalq Novruz günü” elan olunub.

Hər il Daxili Qoşunlarda da bayram tədbirləri təşkil olunur.

Mart ayının 14-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin ərazisində fəaliyyət göstərən uşaq bağçasında da Novruz şənliyi keçirilib. Əlbəttə, körpə balaların diqqətdən kənarda qalmaması artıq bir ənənə halını alıb.

Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlanan hərbi qulluqçularımızın azyaşlı övladlarının qatıldığı şənlikdə Bahar bayramının mahiyyəti, qədim tarixi barədə məlumat verilib, təbriklər çatdırılıb. Daha sonra musiqi nömrələri ilə davam edən tədbir nur çöhrəli övladlarımızın bayram adət-ənənəsini əks etdirən səhnəcikləri, yaz fəslinin gəlişinə həsr olunmuş şeirləri və rəqsləri ilə yaddaqalan olub.



Belə ki, hər il Daxili Qoşunlar Komandanlığının diqqət və qayğısı ilə hərbi hissələrimizdə, eləcə də uşaq bağçamızda keçirilən bayram şənlikləri şəxsi heyətin ürəyincə olur. Bayram tədbirlərinin belə təmtəraqla keçirilməsi hərbi qulluqçularda ruh yüksəkliyi yaradaraq, eyni zamanda milli-mənəvi dəyərlərimizin aşılanmasına xidmət edir.

**gizir Mələk Babazadə**

## *idman*

# YARIŞLARDA QOŞUNLARI UĞURLA TƏMSİL EDƏN HƏRBİ QULLUQÇULARIMIZ

Daxili İşlər Nazirinin əmrinə əsasən, fevralın 27-dən martın 1-dək daxili işlər orqan və hissələri arasında Daxili İşlər Nazirliyinin birinciliyi uğrunda güc çoxnövçülüyü üzrə yarışlar keçirilib. Daxili Qoşunların yığma komandasının tərkibi müəyyən edilməklə 99713, 67987 və 16075 saylı hərbi hissələrdən hərbi qulluqçuların müvafiq qaydada yarışda iştirakı təmin olunub. Belə ki, Daxili Qoşunların yığma komandası Əməliyyat və döyüş hazırlığı İdarəsinin döyüş hazırlığı şöbəsində fiziki hazırlıq və idman rəisi mayor Mehman Nəsibovun rəhbərliyi ilə 11 idmançı yarışa cəlb edilib.



Ağırlıq çəki daşları qaldırma üzrə şəxsi birincilikdə 67987 saylı hərbi hissənin hərbi qulluqçusu MAXE baş çavuş Akif Müslümov 70 kq, 99713 saylı hərbi hissənin hərbi qulluqçuları MAXE çavuş Elvin Dövlətov 75 kq, MAXE çavuş Əli Bayramov 90 kq çəki dərəcələrində 1-ci, 99713 saylı hərbi hissənin hərbi qulluqçusu MAXE çavuş Eldar Məmmədov 65 kq çəki dərəcəsində 2-ci, 67987 saylı hərbi hissənin hərbi qulluqçusu MAXE əsgər Oruc Mustafayev isə 85 kq dərəcəsində 3-cü yeri tutublar.

Armrestlinq üzrə şəxsi birincilikdə 99713 saylı hərbi hissənin hərbi qulluqçuları gizir Elnur Vəliyev 65 kq, MAXE çavuş Röyal Abbaslı 70 kq, MAXE çavuş Ənvər Əmirli 80 kq çəki dərəcəsində 1-ci, 67987 saylı hərbi hissənin hərbi qulluqçusu MAXE çavuş Ruslan Mürşüdov 85 kq dərəcəsində 2-ci, 99713 saylı hərbi hissənin hərbi qulluqçusu MAXE çavuş Eldar Məmmədov isə 3-cü yerləri bölüşüblər.

Məlumat üçün qeyd edək ki, Daxili Qoşunların yığma komandası komanda birinciliyində I yerə layiq görülüb.

**Növbəti idman yarışımız isə martın 9-dan 10-na kimi 99713 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda cüdo üzrə təşkil olunub. Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 16075, 16076 və 25031 saylı hərbi hissələrdən 6 komanda, 42 nəfər hərbi qulluqçu iştirak edib.**

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrilə yarışın təşkili və keçirilməsi üçün müvafiq hakimlər kollegiyası təyin olunub: baş hakim - Daxili Qoşunların Baş İdarəsinin Qərargahında Əməliyyat və döyüş hazırlığı İdarəsinin rəisi – Qərargah rəisinin müavini VİE polkovnik Vurğun Abbasov, katib – Əməliyyat və döyüş hazırlığı İdarəsinin döyüş hazırlığı şöbəsində fiziki hazırlıq və idman rəisi mayor Mehman Nəsibov, döşək üzrə hakim – Daxili Qoşunların İdman komandasında baş məşqçi-baş müəllim mayor Emil Hüseynov.

Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olmub:



**60 kq çəki dərəcəsində**

I yer - kursant Rizvan Sultanov (Ali Hərbi Məktəb);

II yer - kursant Cabbar Cəfərov (Ali Hərbi Məktəb);

III yer - baş leytenant Kamran Əliyev (16076 saylı hərbi hissə).

**66 kq çəki dərəcəsində**

I yer - kursant Səid Allahverdiyev (Ali Hərbi Məktəb);

II yer - əsgər Ramil Rüstəmov (25031 saylı hərbi hissə);

III yer - kursant Abbas Əliyev (Ali Hərbi Məktəb).

**73 kq çəki dərəcəsində**

I yer - kursant Kənan Atakişiyev (Ali Hərbi Məktəb);

II yer - kursant Ömər Bayramov (Ali Hərbi Məktəb);

III yer - MAXE çavuş Elvin Dövlətov (99713 saylı hərbi hissə).

**81 kq çəki dərəcəsində**

I yer - MAXE baş çavuş Çingiz Cəfərov (99713 saylı hərbi hissə);

II yer - MAXE baş çavuş Fariz İlyasov (99713 saylı hərbi hissə);

III yer - əsgər İsmayıl Şabanov (25031 saylı hərbi hissə).

**90 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Əli Bayramov (99713 saylı hərbi hissə);

II yer - MAXE əsgər Oruc Mustafayev (67987 saylı hərbi hissə);

III yer - kursant Cəfərsadiq Ağazadə (Ali Hərbi Məktəb);

**100 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Amil Muradxanov (99713 saylı hərbi hissə);

II yer - MAXE əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə);

III yer - baş leytenant Nurlan Məmmədov (16076 saylı hərbi hissə).

**+100 kq çəki dərəcəsində**

I yer - kapitan Seymur Rzayev (99713 saylı hərbi hissə);

II yer - MAXE çavuş Ruslan Kübərov (67987 saylı hərbi hissə);

III yer - gizir Coşqun İsmayılzadə (16075 saylı hərbi hissə).

Komanda üzrə nəticələrə gəldikdə, 99713 saylı hərbi hissə 32 xalla birinci yerdə qərarlaşıb. Ali Hərbi Məktəb 29, 67987 saylı hərbi hissə isə 6 xalla müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşüblər.

**DQBİ-nin Əməliyyat və döyüş hazırlığı İdarəsində döyüş hazırlığı şöbəsi**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNƏ 2019/2020-Cİ TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI



***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) sırasından seçilirlər.***

Namizədlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - 6 dəfə; qaçış - 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə; qolların üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə, gövdənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanlarında iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasına göndərilir.

***İmtahanlar test üsulu ilə, 3-cü ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.***

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş şəxslər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

***Məktəbi müvəffəqiyyətlə bitirmiş məzunlara “İctimai təhlükəsizlik və idarəetmə” ixtisası və “leytenant” hərbi rütbəsi verilərək, Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər.***

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2019-cu ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmirlər.

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:***

***- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);***

***- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);***

***- yaşayış yeri üzrə tibb müəssisəsindən sağlamlıq haqqında arayış;***

***- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);***

***- oxuduğu təhsil müəssisəsi tərəfindən verilmiş xasiyyətnamə;***

***- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

***Ərizə və sənədlərin qəbulu 2019-cu il martın 1-dən aprelin 10-dək (bayram və bazar günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcək.***

***Məlumat üçün əlaqə telefonları: (012)-590-65-07, (012)-560-27-00.***

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

## BMC “Qış Təlimi”ndə yeni sistemlərini nümayiş etdirib

Türkiyənin ən böyük ticari və hərbi maşın istehsalçılarından olan “BMC Otomotiv Sanayi ve Ticaret AŞ”ın çoxməqsədli nəqliyyat vasitəsi - “Amazon” ağ kamuflyajla nümayiş etdilirib.




Ordu.az “Anadolu” agentliyinə istinadən xəbər verir ki, 7 nəfərlik ekipaj daşıyan, saatda 120 kilometr sürət yığa bilən “Amazon” 80 sm dərinlikdə sudan keçə bilir və 400 mm hündürlükdə olan qar relyefində bir çox əngəli asanlıqla aşır. O, yana 40 dərəcəlik bucaq altında əyilərkən irəliləmək və 70 dərəcəlik bucaq altında olan yüksəkliyə qalxmaq imkanına malikdir.

## “Northrop” infraqırmızı mübarizə sistemləri istehsal edəcək

“Northrop Grumman” ABŞ Hərbi Hava Qüvvələri ilə infraqırmızı mübarizə sistemlərinin (LAIRCM) istehsalı və dəstək xidməti ilə bağlı müqavilə imzalayıb.



Ordu.az xarici KİV-lərə istinadən xəbər verir ki, müqavilənin dəyəri 3,6 milyard dollardır və görülməsi planlaşdırılan işlərin 2025-ci ildə yekunlaşdırılması nəzərdə tutulub.

Qeyd edək ki, sözügedən sistemlər təyyarə heyətini aşkarlanmadan, izlənilmədən və hər hansı elektron müdaxilədən müdafiə edir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000